# Müasir şəxsiyyətyönlü təhsil kiçik məktəblilərin ictimai fəallığının artırılması vasitəsi kimi

**Günay Nasir qızı İbadova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** gunayibadova98@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** şəxsiyyət, ictimai fəallıq, təhsil, kiçik yaşlı məktəbli, pedaqoq, fəallıq
**Ключевые слова:** личность, социальная активность, образование, младший школьник, педагог, активизм
**Key words:** personality, social activity, education, junior schoolboy, pedagogue, activism

Təhsildə başlıca vəzifənin-şəxsiyyətin özünü gerçəkləşdirməsinin həyata keçirilməsi üçün bir-biri ilə sıx əlaqədə olan iki sistemin təhsil və şəxsiyyətin qarşılıqlı təsirini öyrənməlidir. Bu onun üçün lazımdır ki, hər iki sistemin bir-birinə təsirindən ortaya çıxan problemlərin həlli və ona yeni kontekstdən baxılması təhsildə şəxsiyyətin özünüaktuallaşdırması və özünügerçəkləşdirməsinin istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Təhsil prosesinin psixoloji mahiyyətini, onun forma və məzmununu, eləcə də onun şəxsiyyətə təsir dərəcəsini öyrənmədən şəxsiyyətin təhsildə özünügerçəkləşdirməsinin səmərəli təşkilinə nail olmaq çətindir. Şəxsiyyətin tam özünü gerçəkləşdirməsi bilavasitə şəxsiyyətyönlü təhsildə mümkündür. Digər təhsil sistemlərində də şəxsiyyətin inkişafı sərt qaydalara, ənənələrə və sterotiplərə uyğun şəkildə həyata keçirilir ki, bu da şəxsiyyətin özünügerçəkləşdirməsi imkanlarını dərk edib qiymətləndirməsi imkanını xeyli dərəcədə azaldır. Təhsildə və şəxsiyyətin qarşılıqlı əlaqəsinin öyrənilməsi üçün aşağıdakı cəhətlərə xüsusi diqqət yetirməyi zəruri hesab edirik:

Birincisi, təhsil və şəxsiyyət anlayışları müxtəlif psixoloji məzmunlu anlayışlar deyil, inteqrativ əlaqədə olan vahid sistem kimi nəzərdən keçirilməlidir.

İkincisi, təhsildə şəxsiyyətin özünügerçəkləşdirməsinə onun inkişafının koqnitiv və şəxsiyyət mərhələsi kimi baxılmalıdır.

Üçüncüsü, şəxsiyyətin təhsildə inkişaf istiqamətini, onun potensial imkanlarının gerçəkləşdirməsinə tələbatın yaranması prosesi kimi qiymətləndirilməlidir.

Təhsil biliklərin verilməsi, onun subyektlərində əqli və emosional keyfiyyətlərin inkişaf etdirilməsi, şəxsiyyətin formalaşması prosesidir. Yəni təhsil almış şəxslər cəmiyyətə daha yaxşı adaptasiya olunmalı və müxtəlif sahələrdə onların ictimai fəallığı artırılmalıdır. Lakin əks effektin özünü göstərməsi ehtimalı da az deyil. Belə ki, yaxşı təhsil almış insan bir çox hallarda cəmiyyətə adekvat və səmərəli uyğunlaşa bilmir, bir sıra praktik məsələlərin həllində, ictimai fəallığın artırılması məsələlərində, eləcə də peşəkar qabiliyyətlərin gerçəkləşdirilməsində problemlərlə qarşılaşır. Bəs, görəsən səbəb nədir?

Səbəb kimi hər şeydən əvvəl təhsil sistemində şəxsiyyətin təşəkkülü və inkişafının düzgün istiqamətdə getməməsini göstərmək olar. Bunun əsas səbəblərindən biri də təhsildə şəxsiyyətin özünüaktuallaşdırmasına şəraitin yaradılmamasıdır. Deməli, təhsil sistemi nə qədər mükəmməl olsa da, onun şəxsiyyətlə qarşılıqlı əlaqəsi düzgün qiymətləndirilmədikcə şəxsiyyətin hərtərəfli inkişafına praktik problemlərin həllinə, səciyyəvi peşə keyfiyyətlərini özündə ehtiva edən təhsil subyektinin təşəkkülünə nail olmaq xeyli dərəcədə çətindir. Təhsil və şəxsiy-

yətin qarşılıqlı təsirinin müxtəlif aspektlərini öyrənmək üçün şəxsiyyət anlamınada aydınlıq gətirmək zəruridir. Qısaca desək, şəxsiyyətin psixoloji mahiyyətini müəyyən etmək çətindir.

Əlbəttə şəxsiyyəti sosioloji, fəlsəfi, tibbi, psixoloji və pedaqoji aspektdən xarakterizə etmək olar. Lakin burada əsas diqqəti şəxsiyyətin yalnız pedaqoji-psixoloji cəhətlərinə yönəldəcəyik. Çünki şəxsiyyət həm təhsilin subyektidir, həm də onun mərkəzi elementidir.

Təhsil və şəxsiyyətin qarşılıqlı təsirinin elmi-fəlsəfi tədqiqi ona konkret ictimai gerçəklik kontekstindən baxılmasını və sistemlilik şərtinin ödənilməsini tələb edir. Təhsil mürəkkəb ierarxik quruluşa malikdir və şəxsiyyət də bu quruluşda özünəməxsus yer tutur. Bu konsepsiyada təhsilin şəxsiyyət üçün əhəmiyyətli qədim dövrdən tutmuş indiyə qədər vurğulanır. Təhsil və şəxsiyyətin qarşılıqlı əlaqəsində fəlsəfi yönüm adətən mənəvi dəyərlərin fenomenologiyasına yönəldilmişdir. Burada başlıca məsələ, problemlər, müəllimin şagirdə münasibəti, şagirdin təhsilə münasibəti, ona yanaşma tərzindən ibarət olmuşdur. Bununla belə, şəxsiyyət və təhsil sisteminin qarşılıqlı təsiri, eləcə də şəxsiyyətin yaradıcı potensialının inkişaf etdirilməsi fasiləsiz təhsilin yalnız "daxili" elementləri kimi nəzərdən keçirilə bilməz. Burada həm də mühitin xüsusiyyətlərinin nəzərə alınması vacibdir.

Təhsil və şəxsiyyətin qarşılıqlı təsirində sosial-mədəni mühitin təsiri böyükdür. Aparılmış tədqiqatların təhlili göstərir ki, sosial-mədəni mühit maddi, mədəni və ictimai şəraitin mürəkkəb strukturudur. Mühit şəxsiyyətin inkişafında əhəmiyyətli dərəcədə təsir göstərə, eləcə də insan fəaliyyətinin təsiri ilə də özü dəyişilə bilər. Məhz bu cəhət təhsil və şəxsiyyət probleminin mühit amilini daxildə müxtəlif elmlərin obyektinə çevirmişdir. Sosial-mədəni mühit özündə təhsil mühitini də ehtiva edir. Təhsil mühiti, hər şeydən əvvəl sosial-mədəni altsistemin elementidir. Bu sistem tarixi prosesin gedişində mürəkkəbləşmiş amillərin məcmunu təşkil edərək, şəxsiyyətin inkişafı üçün xüsusi pedaqoji şəraitin yaradılmasıdır. Sözün geniş mənasında, sosial-mədəni təhsil mühiti özünə bir neçə qarşılıqlı elementi daxil edən strukturdur. Bəzən sosial-mədəni təhsil mühiti dedikdə, bir sıra mürəkkəb amillər sistemini nəzərdə tuturlar. Belə bir sistemdə insanlar təhsil prosesinə, onun nəticələrinə təsir göstərirlər. Buna misal olaraq humanitar təhsil mühitini göstərmək olar. Humanitaryönlü təhsil təhsilin şəxsiyyətlərarası münasibətlər prosesi kimi səciyyələndirilərək təhsildə səmimilik, müstəqillik, dözümlülük kimi elementlərin bərqərar olmasına zəmin hazırlayır, subiyektivliyin yenidən aktuallaşmasına, diqqət mərkəzinə düşməsinə şərait yaradır. Sosial-mədəni təhsil mühitini tədqiq edərkən, eləcə də şəxsiyyət və təhsilin qarşılıqlı təsirindən danışarkən bir sıra tədqiqatçılar sistem nəzəriyyəsini qəbul edərək, göstərirlər ki, insana özünü inkişaf etdirən sistem kimi yanaşılmalıdır.

Kiçik məktəb yaş dövründə kiçik yaşlı məktəblilərin ictimai fəallığının artırılması məsələsi də bilavasitə müəllimin düzgün təşkil etdiyi şəxsiyyətyönlü humanitar təlim mühitindən asılıdır. Düzgün təlim mühitinin yaradılması müəllimdən böyük bacarıq və pedaqoji ustalıq tələb edir. Müəllimin ustalığı, hər şeydən əvvəl, tədris prosesini təşkil etmək bacarığındadır. Usta müəllim hətta ən əlverişsiz şəraitdə belə şagirdlərin lazımi tərbiyəlilik, inkişaf və bilik səviyyəsinə nail olur. Əsl müəllim hər hansı bir suala qeyri-standart cavab tapa bilir, şagirdə xüsusi yanaşmağı bacarır. Belə müəllim öz fənnini əsaslarını tədris etdiyi elmin inkişaf perspektivlərini dərindən bilir.

Müəllimin ustalığı öyrənmək bacarığını şagirdlərə öyrətməkdə özünü göstərir. Təcrübəli müəllim tədris materialını şagirdlərə dərsdə mənimsətməyə və şagirdləri axtarıcılığa, ictimai fəallığa cəlb etməyə nail olur. Ustalığın mühüm göstəricilərindən biri şagirdləri fəallaşdırmaq, onların qabiliyyətini, müstəqilliyini, ictimai fəallığının artırılması bacarığıdır. Pedaqoji ustalığa malik pedaqoq şəxsiyyətyönlü təlim prosesini düzgün qurmağı bacarmalı və təlim prose-

sində iştirak edən kiçik yaşlı məktəblilərin psixologiyasına yaxından bələd olmalı və onlara ictimai fəallığın faydalarını izah etməlidir.

**Məqalənin aktuallığı.** Kiçik yaşlı məktəblinin psixologiyasına dərindən bələd olan müəllim bu yaşda şagirdlərdə qeyri-ixtiyari diqqət, mexaniki hafizə, konkret təfəkkürün üstünlük təşkil etdiyini nəzərə alaraq təlim prosesini ona uyğun qurmağı bacarmalıdır. Kiçik yaşlı məktəblinin qavrayışı sabit və mütəşəkkil olmasa da, onlar ətraf aləmi həvəslə, emosional qavrayırlar. Müəllim bunu nəzərə alaraq şagirdləri məqsədyönlü dinləməyə alışdırmalı, onlarda müşahidəçilik qabiliyyətini inkişaf etdirməli və kiçik yaşlı məktəblilərdə ictimai fəallığın artırılması üçün səy göstərməlidir. Məqalə də məhz bu mövzuya həsr edildiyindən onu aktual saya bilərik.

**Məqalənin elmi yeniliyi.** İctimai fəallıq ictimai həyatda fəal iştirak etmək deməkdir. İctimai fəallıq göstərən kiçik yaşlı məktəbli daha məlumatlı və daha əzmkar olur. Kiçik yaşlı məktəbli düzgün qurulmuş şəxsiyyətyönlü təlim prosesində ictimai fəallığını artırmaqla, həmçinin ictimai maraqlara fayda verdiyini dərk etməlİdir. Bəs ictimai fəallıq kiçik yaşlı məktəbliyə necə fayda verə bilər? İctimai fəallıq kiçik yaşlı məktəbliyə yeni insanlarla tanış olmaq, yeni biliklər əldə etmək, dostlar qazanmaq və geniş imkanlara çıxış əldə etməyə kömək edir. Kiçik yaşlı məktəblilərin sosiallaşmasında ictimai fəallığın rolu danılmazdır. Kiçik yaşlı məktəblilər ictimai fəallığı əksər hallarda borc hiss edərək edirlər, ancaq ictimai fəallığın verdiyi ən böyük fayda təbii ki, cəmiyyətə xeyrli ola bilmək hissinin verdiyi məmnunluqdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Müasir şəxsiyyətyönlü təhsildə şagirdlərin fərdi və psixoloji xüsusiyyətlərinin nəzərə alınması ictimai fəallığının artırılmasında əsas vasitə kimi çıxış edir. Kiçik yaşlı məktəblilərdə ictimai fəallığın artırılması onların müstəqilliyə və axtarıcılığa sövq edilməsinə gətirib çıxardır. Məhz bu kimi vacib problemə həsr olunan məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilətlər.

## Ədəbiyyat


1. M. İsmixanov, S. Vəliyeva. Sosial pedaqogika. Bakı, 2014.
2. Ə. Paşayev, F. Rüstəmov. Pedaqogika. Bakı, 2010.


**Г.Н. Ибадова**

## Современное личностно-ориентированное образование как средство повышения социальной активности школьников младших лет

## Резюме

Педагог, хорошо знакомый с психологией юного ученика, должен уметь адаптировать учебный процесс к этому возрасту с учетом преобладания у учеников непроизвольного внимания, механической памяти, конкретного мышления. Хотя восприятие этих студентов нестабильно и не организовано, они воспринимают окружающий мир с энтузиазмом и эмоциями. Помня об этом, учитель должен обучать учащихся целеустремленно слушать, развивать их наблюдательность и стремиться повысить социальную активность учащихся младшего возраста. В статье также рассматриваются способы решения столь актуальной проблемы.

**G.N. Ibadova**

## Modern personality-oriented education as a means of increasing the social activity of young students

### Summary

A teacher who is well acquainted with the psychology of a young student should be able to adapt the learning process to this age, taking into account the predominance of involuntary attention, mechanical memory, concrete thinking in students. Although these students' perceptions are not stable and organized, they perceive the world around them with enthusiasm and emotion. With this in mind, the teacher should train students to listen purposefully, develop their observation skills, and strive to increase social activity in younger students. The article also discusses ways to solve such an urgent problem.

**Redaksiyaya daxil olub:** 12.10.2020